*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 434-442*

https://doi.org/10.62837/2025.3.434

**HƏSƏNOVA GÜLZAR ƏLIF QIZI**
***Heydər Əliyev adına Hərbi İnstitut***
***NATO/SNT və Humanitar fənlər kafedrası***

# HƏRBİ PSİXO-PEDOQOJİ PROSES VƏ ONUN ÖZÜNƏMƏXSUSLUĞU

**Açar sözlər: psixologiya, psixo-pedaqoji proseslər, əməliyyatlar**

Məqalədə hərbi- psixopedoqoji prosesin müasir döyüşə təsiri, onun çoxtərəfliliyi, ordu quruculuğunda təşkili və həyatə keçirilməsi kimi problemlərə toxunulmuşdur.

Hərbi psixo-pedaqoji proses müasir döyüş şəraitində hərbi əməliyyatların uğurla aparılması üçün ixtisaslı hərbiçilər hazırlamaq məqsədilə təşkil olunan təlim-tərbiyə prosesidir.

Hərbi psixo-pedaqoji proses ikitərəflidir. Onun bir tərəfində komandir, müəllim dayanır ki, o, hərbiçilərdə yüksək mənəvi-döyüş keyfiyyətləri formalaşdırır, onların müasir müharibə şəraitində hərbi əməliyyatları müvəffəqiyyətlə yerinə yetirməyə hazırlayır.

Digər tərəfdə isə hərbiçilər- əsgərlər,kursantlar və b. Dayanırlar ki, onlar təlim-tərbiyə prosesinin obyektləridir.

Hərbi-texniki hazırlıq hərbi əməyin bir forması kimi hərbi psixo-pedaqoji proses zamanı həyata keçirilir.Bu əməyin nəticəsi isə bilik, bacarıq və vərdişlərin qazanılmasıdır.

Hərbi psixo-pedaqoji prosesdən asılı olaraq təlim və tərbiyənin xarakterində mühüm dəyişmələr baş verir. Bu öz əksini hərbi psixo-pedaqoji prosesin qanunauyğunluqlarında – tərbiyə və təlimin birliyində, elmiliyində və tərbiyəvi xarakterində və s. tapır.

Hərbi – texniki amillərin təsiri ilə təlim və tərbiyənində forması və mahiyyəti dəyişir. Hərbi psixo-pedaqoji proses isə daha gərgin xarakter almağa başlayır.

Qeyd edək ki, hərbi psixo-pedaqoji prosesin özünə məxsus quruluşu vardır. O, iki mərhələdən ibarətdir: 1. Hər bir hərbiçinin fərdi hazırlığı; 2. Hərbi bölmələrin və hərbi hissələrin hazırlığı. Bununla belə, həmin mərhələlər bir-biri ilə sıx bağlıdır.

Təlim iki hissəyə - qış və yay mərhələlərinə ayrılır. Hər bir mərhələnin sonunda ayrı-ayrı hərbiçilərin, bölmə və hissələrin hərbi hazırlığının nəticələri ümumiləşdirilir.

Hərbi psixo-pedaqoji prosesə orduda xidmətin təşkili, şəxsi heyyətlə tərbiyəvi tədbirlərin aparılması da daxildir. Beləliklə, Hərbi psixo-pedaqoji proses çox çətin və özünəməxsus cəhətləri olan bir hadisədir. Bu proses həm də çox dinamikdir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 434-442*

Onun əsas məqsədi hərbiçilərin, hərbi bölmələrin və hərbi hissələrin hazırlığını həyata keçirmək, Vətənin müdafiəsini təmin etmək üçün müasir müharibədə hərbi əməliyyatların uğurla aparılmasını təmin etməkdir.

Hərbiçilərin əmək və məişətinin özünəməxsusluğu hərbi psixo-pedaqoji prosesin mahiyyətinə, metodik cəhətdən düzgün təşkil edilib həyata keçirilməsinə təsir edir və eyni zamanda, hərbi psixo-pedaqoji prosesin xarakterini də müəyyənləşdirir.

Hərbi qanunlara görə hər bir hərbiçi etdiyi hərəkətlərə görə məsuliyyət daşıyır. Hərbiçinin borcudur ki, o öz ixtisasına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnsin, xidməti vəzifəsini vicdanla yerinə yetirsin.

Hərbi psixo-pedaqoji prosesin daha bir özünəməxsusluğu ondadır ki, bu prosesdə hərbi biliklər sistemli şəkildə, bacarıq və vərdişlər xidməti fəaliyyətin tərkib hissəsi kimi özünü göstərir.

Beləliklə, hərbi psixo-pedaqoji proses hərbiçilərin xidməti fəaliyyətinin tərkib hissəsinə çevrilir. Təlim prosesində hərbiçilərin aldıqları bilik , bacarıq və vərdişlər tezliklə hərbi növbətçiliyə və bir sıra vacib hərbi tapşırıqların da yerinə yetirilməsinə tətbiq edilir. Bütün bunlar hərbiçilərin hər an döyüşə hazır olmalarına şərait yaradır.

Hərbi psixo-pedaqoji proseslə xidməti fəaliyyət arasında möhkəm əlaqənin yaradılması şəxsi heyətin döyüş qabiliyyətini yüksəltməyə və döyüşü müvəffəqiyyətlə həyata keçirməyə kömək edir. Beləliklə, hərbi psixo-pedaqoji proses ordunun hərbi hazırlığının təmin edilməsinin mühüm və vacib amili kimi çıxış edir.

Daimi hərbi hazırlığı təmin etmək üçün hərbiçilərə onların ixtisaslarına uyğun bilik, bacarıq və vərdişlər verilməlidir. Buna görə də ali hərbi məktəblərdə təlim-tərbiyə işləri elə təşkil edilir ki, təhsil müddətdə ixtisaslı hərbiçilər hazırlamaq mümkün olsun. Təhsildən sonrakı müddətdə də onların bilik, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi diqqət məzkəzində saxlanılır.

Təlim prosesi ilə xidməti fəaliyyətin vəhdəti mürəkkəb hərbi – texnika silahlara daha mükəmməl yiyələnməyə kömək edir. Burada hərbi təlim proqramlarının hazırlanması da diqqət mərkəzində dayanır.

Hərbi psixo-pedaqoji proses gərgin prosesdir. Gərginlik özünü həm də hərbi texnikaya və silahlara xidmətdə, onların tətbiqi üçün vacib olan bilik, bacarıq və vərdişlərə yiyələnməkdir, bunlara sərf edilən əməyin gərginliyində özünü büruzə verir.

Hərbi xidmətin bir sıra başqa sahələri də vardır ki, bunlar daha çox fasiləsizlik tələb edən işlərdir. Bunlara cihazlar, mexanizmlər üzərində növbətçilik və s. daxildir. Hərbiçilər üçün çətin yol şəraitində, eyni bir vəziyyətdə oturmaq onları yorur və əsəbləşdirir. Tədris məşğələlərində iştirak texnikaya və silahlara xidmət bəzən hərbiçiləri həddən artıq çox yorur ki, bu da məhsuldarlığa mənfi təsir

göstərir. Bu hal özünü daha çox gənc hərbiçilərin simasında büruzə verir. Buna görə də belə proseslərə davamlılığının edilməsinin məqsədilə xeyli iş görülməlidir.

Təlim-tərbiyə prosesində müxtəlif sahələr üzrə ixtisaslı mütəxəssislər həm fərqli həm də qrup şəklimdə hazırlanır. Unutmaq olmaz ki, indiki hərbi texnika və silahlar tək-tək adamlar tərəfindən deyil, həm də kollektiv tərəfindən idarə olunur. Bu cür müasir hərbi texnika və silahların idarəsi üçün mükəmməl biliklər tələb olunur. Onu da nəzərə almaq lazımdır ki, bu gün çox sayda hərbi ixtisas vardır.

Təlimin qarşısına qoyulan tələblərdən biri də hərbi mütəxəssislərin nəzəri və praktiki hazırlığının hərtərəfli təmin olunmasıdır. Onlar hərbi- texnika və silahlardan səmərəli və savadlı şəkildə istifadəni bacarmalı, bu işə psixoloji cəhətdən hazır olmalı və fəallıqları təmin olunmalıdır.

Hərbi psixo-pedaqoji prosesin rəhbəri çalışır ki, bölmənin döyüş ruhu möhkəmlənsin, kollektivdə dostluq və əməkdaşlıq münasibətləri daha davamlı olsun, hərbi kollektivin sarsılmazlığı təmin olunsun. Buna görə də hərbi kollektivdə əvəzedilməyə xüsusi fikir verilməli, təlimdə fəaliyyət göstərmələri üçün onları psixoloji cəhətdən hazırlamaq lazımdır.

Psixoloji hazırlıq prosesi bütövlükdə hərbi pedaqoji prosesə müsbət təsir göstərə bilir, onun inkişafına səbəb olur, təlim-tərbiyədə müsbət nəticələrə gətirib çıxarır.

Fərdi təlimdə proqramlaşdırılmış təlimdən, şəxsi heyətin təlimində isə fərdi təlim proqramlarından istifadə olunur ki, bunlar da yerinə görə çox sərfəlidir.

Hərbi psixo-pedaqoji proses adi pedaqoji prosesdən genişliyinə, çoxcəhədliyinə və mürəkkəbliyinə görə fərqlənir. Hərbi psixo-pedaqoji prosesdə təlim-tərbiyə müasir müharibələrin uğurla qurtarması məqsədinə tabe olmalıdır.

**Hərbi sahədə baş verən elmi-texniki tərəqqinin hərbi psixo-pedaqoji prosesə təsiri.** Silahlı Qüvvələrdə tətbiq edilən texniki yeniliklər, müxtəlif təkmilləşmələr hərbi psixo-pedaqoji prosesdə də dinamik inkişafa səbəb olur.

Son vaxtlar Azərbaycan ordusunda özünü göstərən hərbi- texniki tərəqqi ordu quruculuğunda irəlləyişlərə səbəb olmuşdur. Texnikanın və silahların komplektləşdirilməsi, ordunun strukturu quruluşuna və onun idarə olunmasına müsbət təsir göstərmişdir. Şübhəsiz ki, bütün bunlar təlim – tərbiyənin prinsip, metod və üsullarında mühüm dəyişmələrə gətirib çıxarmışdır.

Müasir şəraitdə hərbi silah , cihaz və uçuş aparatların fiziki əsaslarını mükəm mənimsəməsək onların texniki imkanlarından maksimum şəkildə bəhrələnməyə, uzunmüddətli istifadəsinə imkanlar veriləcək.Silahlara yüksək səviyyədə texniki xidmət onların istismar müddətini uzadır.

Təcrübələr sübut edir ki, hərbi texnikadan istifadə zamanı rast gəlinən texniki çatışmazlıqlar, hərbi texnikanın və silahların quruluşunu zəif bilməkdən irəli gəlmir. Bu, daha çox hərbi texnikada baş verən proseslərin fiziki mahiyyətinə kifayət

qədər yiyələnməməyin, bu və ya digər fəaliyyətin nəticələri haqqında təsəvvürün düzgün formalaşmamsının nəticəsidir.

Bütün bunlara görə təlimin təşkilində və həyata keçirilməsində texniki hazırlığa, ixtisaslı hərbiçilərin nəzəri hazırlığına geniş yer verilməlidir. Buna görədə də ixtisaslı hərbiçilərin yenidən hazırlanması və onların nəzəri hazırlığının daha da təkmilləşdirilməsi həyata keçirilməlidir. Bu məqsədlə hərbi hissələrdə texniki bilik universitetlərinin, texniki lektoriyaların və s.-nin işinin daha da təkmilləşdirmək, texniki təbliğatı yeni əsaslar üzərində qurmaq lazımdır.

Şəxsi heyətin nəzəri hazırlığını artırmaq onların ixtisaslarına uyğun biliklərini daha da genişləndirməyi, müasir silahlara və hərbi texnikaya aid bilik və bacarıqların verilməsimetodikasının köklü surətdə təkmilləşdirilməsini tələb edir. Bunlar həm hərbi ustalıqla, həm də hərbiçilərin texniki təfəkkürü ilə bağlı məsələlərdir. Bu günün tələbləri, həm də ondan ibarətdir ki, ayrı-ayrı hərbi əməliyyatların yerinə yetirilməsinə, silahların və texnikanın idarə edilməsinə ayrılmış vaxt xeyli qısaldılmışdır ki, bunlar da müasir döyüşlərin xarakterindən irəli gəlir. Hazırda hərbi texnikanı və silahları idarə edərkən hərbiçilərdən tələb edilir ki, onlar bir neçə taktiki və əməli fəaliyyəti eyni zamanda başa düşüb qeydə ala bilsinlər, siqnallar qəbul edilərkən onlara dərhal lazımi cavablar verilsin və s.

Hərbi ustalığın səmərəliliyinə təsir göstərən amillərdən biri də hərbiçilərin psixoloji hazırlığı ilə bağlıdır. Əbəttə, burada diqqətin, hafizənin, kənar şəxslərə reaksiyaların və s. nəzərə alınması, eyni zamanda, diqqətin paylanması, hafizənin sürəti kimi şərtlərə əməl edilməsi vacibdir.

Hər bir insanın psixoloji və fizioloji imkanlarının sərhədi vardır. Əgər bu imkanları daha da genişləndirmək lazımdırsa, onda hərbiçi özünə güvənməli, hissi və hərəkət reaksiyalarından istifadə etməyi bacarmalıdır. Bütün bunlara müxtəlif psixoloji vərdişlərin mükəmməlləşdirilməsi ilə nail olmaq mümkündür. Eyni zamanda, hisslərin inkişafına, reaksiyaların sürətinə, orqanizmin fiziki tarazlığına, yorğunluğun aradan aradan qaldırılmasına diqqət yetirməlidir.

Təlim prosesində təkcə qısa zaman kəsiyində texniki biliklərə yiyələnmək olmaz. Həm də xüsusi psixoloji məşqlərin köməyi ilə hissi orqanların inkişafına nail olmaq mümkün və lazımdır.

Hazırda hərbi – texniki ixtisasların çeşidliliyi özlüyündə texniki ixtisaslar üzrə yüksək səviyyəli mütəxəssislərin ixtisaslarının daha da təkmilləşdirilməsini zərurətə çevirir. Bu çox çətin və məsuliyyətli işdir. Yeni hərbi texnika ilə təchizat tez baş verir, ancaq həmin texnikaya yiyələnmək işi müəyyən vaxt tələb edir. Buna görə də hərbiçilərin yenidən hazırlanması xüsusi metodikanın işlənməsini, nəzəri təlim proqramlarının yeniləşdirilməsini ortaya çıxarır.

Yeni texnika ilə təchizat və modernləşdirmə ali hərbi məktəblərdə texniki kadrların hazırlanması sistemini yeniləşdirməni zəruri edir. Bir çox hallarda bu işi sürətlə həyata keçirmək o qədərdə asan olmur. Bununla belə, mürəkkəb hərbi

texnikanın və silahların təcili öyrənilməsi kursantlar üçün psixoloji çətinliklər yaradır, onların idrak imkanlarını üstələyir ki, bu da yeni texnikanı səmərəli şəkildə mənimsəməyə mane olur. Buna görə də, texniki təlim prosesi təkcə texniki silah nümunələrinin öyrənilməsi və mənimsənilməsi üzərində qurulmamalıdır. Burada texniki təfəkkürə əsaslanmaqla səmərəli ola biləcək lahiyələrin oyrənilməsinə də üstünlük verilməlidir.

Müasir hərbi elmi-texniki yüksəliş daha mürəkkəb və heç də asan idarə olunmayan hərbi texnikanın yaradılmasına gətirib çıxarmışdır. Bu mürəkkəblik silahların tətbiqində onlara xidmətdə kollektivçiliyi ön plana çəkir. Bu da özlüyündə həm ayrı-ayrı hərbiçilərin, həm də hərbi kollektivlərinin məsuliyyətini daha da artırır. Raket vasitəsi ilə müasir qırıcı təyyarənin məhv edilməsi təkcə bir neçə hərbiçinin işi ola bilməz. Bu vəzifə kollektivin gücü və birliyi ilə yerinə yetirilir ki, bu da özlüyündə hərbiçilərin kollektiv şəkildə hazırlığını zərurətə çevirir. Bunlar öz əksini gündəlik hərbi hazırlıq təlimlərində, hərbi növbətçilikdə, çöl təlimində və s.-də tapır. Şübhəsiz ki, belə fəaliyyət prosesində əsas yük hərbiçilərin kollektiv fəaliyyətinin nəticəsi və qiymətləndirilməsi, döyüş zamanı onlar arasındakı hərbi birliyin gözlənilməsi, bir-birinə yaxın ixtisasların mənimsənilməsinin səviyyəsi, təcrübə mübadiləsinin aprılması və s.-nin üzərinə düşür.

Kollektivin təlim əməyi tələb edir ki, komandir və müəllim hərbi kollektivin psixoloji durumunu yaxşı bilsin, onların xarakterik xüsusiyyətləri hökmən nəzərə alınsın. Bu işə metodiki cəhətdən yanaşılaraq, həmin məqsədlə kollektivin qarşısında müəyyən təlim tapşırıqlarının qoyulması, nəticə, təklif, tənqid və özünürənqidin nəzərə alınması, daha vacib sualların diskussiyası, (müzakirəsi) hərbi texnika və silahların idarə olunması və hərbi qruplar üzərində kollektiv nəzarətin həyata keçirilməsi təmin olunmalıdır.

Hər bir kollektiv üzvünün fərdi qabiliyyətlərini təlim proseslərində düzgün qiymətləndirən komandir, qısa zamanda hərbi hazırlıq proqramının mənimsənilməsini təmin edə bilər, onlarda texniki və taktiki təfəkkürü inkişaf etdirməyi bacarar. Şübhəsiz ki, bu işdə texnikanın və silahların etibatlılığına, həmçinin, bizim silahlarımızın və hərbi texnikamızın düşmənin hərbi texnika və silahlarından üstünlüyünə olan inam da mühüm rol oynayır.

Bir sıra hallarda isə kollektiv uzvləri arasında psixoloji uyuşmazlıq baş verir. Bu hal özünü hərbi texnikanın idarə edilməsi zamanı büruzə verə bilər. Bunlara isə adamların xarakterində, temperamentində, hissi-iradi sahədə, təhsildə və s.-də olan fərqlər səbəb ola bilər. Bunları aradan qaldırmaq üçün hər bir kollektiv üzvü öz vəzifəsini bilməli, hərbiçilər arasında qarşılıqlı inam olmalı, kollektiv ənənələrə hörmətlə yanaşılmalıdır.

Müasir müharibələrdə tətbiq olunan dağıdıcı və məhvedici silahlar, nüvə başlıqları və s. hərbiçiləri düşünməyə məcbur edir, onlara mənəvi-psixi və fiziki təsir göstərir. Bütün bunlar hərbiçilərdə daha möhkəm, davamlı hərbi-mənəvi və

psixoloji keyfiyyətlərin formalaşdırılmasını tələb edir. Hərbi kollektivdə hərbi-mənəvi və psixoloji keyfiyyətlərin formalaşdırılması onları müasir döyüşlərə hazırlayır. Mənəvi-hərbi və psixoloji hazırlıq hərbiçiləri vahid bir məqsədə səfərbər edir.

Hərbiçilərin təlim -tərbiyəsi təlim prosesi ilə sıx bağlıdır. Məqsəd psixoloji sabitliyin qorunması, müasir döyüşlər zamanı çətin və gərgin şəraitlərə dözməklə hərbi tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirmək, qələbəyə inamı itirməmək və mənəvi davranış psinsiplərinə möhkəm əməl etməkdir. Bu mühüm psixoloji keyfiyyətlərə kişilik, cəsurluq, daxilən özünü şəhidliyə hazır hiss etdirmək, döyüşdə fəallıq, fədakarlıq və cəsarət kimi çox vacib keyfiyyətlər daxildir.

Hazırda təlim -tərbiyədə hərbiçilərdə hərbi-mənəvi və psixoloji keyfiyyətlərin formalaşdırılması məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. Hərbi Dəniz Qüvvələri, Hərbi Hava Qüvvələri, Quru Qoşunları üçün ixtisaslı mütəxəssislərin hazırlanması məqsədi ilə xüsusi tədris proqramları tərtib olunmuşdur. Bu proqramlar mahiyyətinə və metodikasına görə əvvəlkilərdən çox fərqlənir. Həm də bu proqramlar o qədər intensiv və konkretdir ki, onlardan müstəqil şəkildə də istifadə edilə bilər.

Hərbi psixo-pedaqoji prosesin ümumi xarakterinin, hərbi-hazırlığın mahiyyətinin dərindən öyrənilməsi, onunla bağlı işlərin praktik şəkildə dəqiq uçotunun aparılması imkan verir ki, hər bir komandir pedaqoji fəaliyyətində müxtəlif təlim metodlarından səmərəli istifadə etsin, hərbiçilərin təlim-tərbiyəsinə məqsədyönlü formada təsir göstərə bilsin.

**Hərbi psixo-pedaqoji prosesin effektivliyinin təmin olunmasına təsir edən əsas amillər.**Hərbi psixo-pedaqoji prosesin effektivliyi, hər şeydən əvvəl, ümumi və peşəkar hazırlığın səviyyəsindən, habelə komandirin pedaqoji ustalığından aşlıdır. Çünki komandir bilavasitə bu prosesin təşkilatçısı və rəhbəridir.

Ölkəmizdə zabit kadrlarının hazırlığı çox yüksək səviyyədə həyata keçirilir. Onların təlim-tərbiyəsi üçün mühüm işlər görülür, pedaqoji ustalıqları daim artırılır, yenidən hazırlanmaları da diqqətdən kənarda qalmır. O cümlədən, gənc zabitlərin hazırlanmasına xüsusi diqqət yetirilir. Onların əsil komandir və tərbiyəçi kimi yetişməsinə böyük səy göstərilir.

Hərbi psixo-pedaqoji prosesin effektivliyini şərtləndirən amillərdən biri də orduya çağırışla bağlıdır. Orta məktəb təhsilli, hərtərəfli fiziki hazırlığa malik gənclər orduda lazımi bilik, bacarıq və vərdişlərə yiyələnir, üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirirlər. Çağırışçıların içərisində lazımi peşələrə yiyələnmiş gənclər, tanınmış idmançılar və b. Vardır ki, onlar Vətən qarşısındakı məsuliyyətlərini çox gözəl başa düşürlər.

Bu gün gənclərimizin hərtərəfli tərbiyəsi üçün orduda geniş işlər görülür. Onların fəallığının artırılması, fiziki imkanlarının genişləndirilməsi həmişə diqqət mərkəzindədir.

Hərbi psixo-pedaqoji prosesdə həm fərdi, həm də frontal təlim metodlarından istifadə olunur.

Fərdi təlimdə hərbiçinin fərdi xüsusiyyətləri və bir sıra başqa cəhətləri nəzərə alınır. Burada təlim prosesində zabitin rəhbərliyi altında hərbiçilərin hər birinin tədris materialı üzərində müstəqil çalışması xüsusi diqqət mərkəzində saxlanılır.

Təlim prosesinin səmərəliliyini təmin edən amillərdən biri də proqramlaşdırılmış təlimdir. Bu, təlimin nəzəriyyə və praktikasının qanuni nəticəsi kimi ortaya çıxmış, pedaqogika, psixologiya, digər tərəfdən isə kibernetikanın nailiyyətlərinin yekunu kimi özünü göstərmişdir. Proqramlaşdırılmış təlimin özünəməxsus metodları və təşkilati quruluşu vardır. Şübhəsiz ki, təlim prosesini texniki vasitələrsiz düşünmək olmaz. Kino, televiziya, səsyazıları, və nəhayət internet. Texniki vasitələr təlimi asanlaşdırır, onu daha da effektli edir, bilikləri asan yolla qavramağa imkan yaradır. O, həm də təlimə marağı artırır, lazımi psixoloji iqlimin yaradılmasına, saxlanılmasına və yorğunluğun aradan qaldırılmasına kömək edir.

Təlimin effektliyinə təsir göstərən amillərdən biri də idarəolunan təlimdir. Belə təlim, tədris prosesinə müasir təlim aparatlarının tətbiqini, hərbi mühəndislik psixologiyasının köməyilə daha çətin hərbi peşələrə düzgün seçimin mümkünlüyünü nəzərdə tutur. Hərbi hazırlıq normativlərinin təlim prosesində nəzərə alınması da çox vacibdir. Bu normativlərə uyğun əməliyyatların yerinə yetirilməsi, hərbi texnikaya xidmət və s. daxildir. Hərbi normativlər hərbiçilərdə məsuliyyət hissini artırır, onları yaradıcılığa ruhlandırır və s. Burada hər bir kəs öz əməyinin nəticəsini əyani şəkildə görə bilər. Hərbi psixo-pedaqoji prosesə təsir göstərən amillərdən biri də sinifdənkənar vaxtda hərbi ustalığın və texniki biliklərin aşılanması məqsədilə həyata keçirilən tədbirlərdir. Hərbi silah və texnikanın dərindən öyrənilməsi hərbiçiləri digər hərbi texnikanı da öyrənməyə sövq edir. Texniki dərnəklərdə dünyada baş verən ən son hərbi texniki yeniliklər haqqında məlumatların verilməsi çox vacibdir. Son zamanlar orduda qabaqcıl təcrübə məktəbinin təşkili diqqəti xüsusi cəlb edir. Onlar hərbi hissələrdə təşkil olunur, bölmələrdə filialları yaradılır. Belə məktəblərə şura rəhbərlik edir. Onun işində mütəxəssislər- təcrübəli metodistlər, komandirlər, mühəndislər, texniklər, xidmət rəisləri iştirak edir. Sovet məşğələrin mövzularını müəyyənləşdirir, aparılmasının metodikasını hazırlayır, qabaqcıl təcrübəni ümumiləşdirir və yayır. Qabaqcıl təcrübə məktəbinin tərkibində ümumqoşun, hərbi – texniki, hərbi psixologiya və pedaqogika bölmələri də fəaliyyət göstərə bilər. Hərbi psixo-pedaqoji prosesin effektliyini dəqiq planlaşdırmadam və uçotdan kənarda düşünmək olmaz. Plan və uçot təlim-tərbiyənin, xüsusilə hərbi fəaliyyətin çıxış nöqtəsidir. Planlaşma və uçot vaxtdan dəqiq, düzgün, səmərəli istifadəyə, qüvvələri və vasitələri düzgün yerləşdirməyə, şəxsi heyətin işlərini tənzimləməyə, ümumiyyətlə, müəllimlərin fəaliyyətini istiqamətləndirməyə kömək edir. Düzgün planlaşdırma hərbi-pedaqoji prosesi

əvvəlcədən görməyə, bu gün, sabah və o biri gün nə etmək lazım olduğunu dürüstləşdirməyə, bütün qüvvələri əsas hədəfə istiqamətləndirməyə şərait yaradır.

Hərbi psixo-pedaqoji prosesin effektliyində komandir və müəllimlərin pedaqoji ustalığının, şəxsi heyətin təlim-tərbiyəsinə elmi yanaşmanın, yaradıcılıq təşəbbüslərinin böyük təsiri vardır. Öz işinə, peşəsinə sədaqət, ona tənqidi yanaşmaq, daim öz üzərində çalışmaq hərbi-psixopedaqoji proses üçün çox vacib şərtlərdəndir.

## NƏTİCƏ

Hərbi psixo-pedaqoji prosesin öyrənilməsi bu mürəkkəb prosesin mahiyyətini, hərbi sahədə baş verən elmi-texniki tərəqqinin hərbi psixo-pedaqoji prosesə təsirini və hərbi –psixo-pedaqoji prosesin effektliyinin təmin olunmasına təsir edən əsas amilləri aydınlaşdırmağa kömək edər.

## ƏDƏBİYYAT

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ümümqoşun Nizamnamələri. Bakı: Hərbi nəşriyyat, 2007, 490 s

Pedaqogika/Talıbov Y.R. və b. Bakı:Maarif,1993. 292 s.

**ГАСАНОВА ГЮЛЗАР**

## РЕЗЮМЕ

Также очень важно в процессе обучения учитывать стандарты военной подготовки. Включает в себя выполнение работ в соответствии с этими стандартами, обслуживание военной техники и т.п. Воинские уставы повышают у военнослужащих чувство ответственности, вдохновляют их на творчество и т. д. Здесь каждый может наглядно увидеть результаты своего труда. Одним из факторов, влияющих на военный психолого-педагогический процесс, является проводимая во внеучебное время деятельность по привитию военно-технических навыков и знаний. Углубленное изучение боевого оружия и техники побуждает военнослужащих изучать и другую военную технику. Очень важно предоставлять в технических кругах информацию о новейших военно-технических инновациях, происходящих в мире.

В последнее время особое внимание привлекла организация школы передовой практики в армии. Они организованы в воинские части, а в частях созданы отделения. Такие школы управляются советом.

В ее работе задействованы специалисты — опытные методисты, командиры, инженеры, техники, начальники служб. Совет определяет тематику учений, разрабатывает методику их проведения, обобщает и распространяет

передовой опыт. В состав школы повышения квалификации могут также входить общевойсковой, военно-технический, военно-психологический и педагогический факультеты.

**Ключевые слова: психология, психолого-педагогические процессы, операции**

**HASANOVA GULZAR**

## MILITARY PSYCHO-PEDOGOGICAL PROCESS AND ITS IDENTITY

## SUMMARY

It is also very important to take into account the standards of military training in the training process. These standards include the implementation of operations in accordance with them, maintenance of military equipment, etc. Military standards increase the sense of responsibility in servicemen, inspire them to creativity, etc. Here everyone can clearly see the results of their labor.

One of the factors influencing the military psycho-pedagogical process is the measures taken outside the classroom to instill military skills and technical knowledge. In-depth study of military weapons and equipment encourages servicemen to study other military equipment. It is very important to provide information about the latest military technical innovations taking place in the world in technical circles.

Recently, the organization of advanced practice schools in the army has attracted special attention. They are organized in military units, and branches are created in units. Such schools are headed by a council. Specialists - experienced methodologists, commanders, engineers, technicians, service chiefs - participate in its work. The council determines the topics of exercises, develops a methodology for their conduct, summarizes and disseminates advanced practice. The advanced practice school may also include general-arms, military-technical, military psychology, and pedagogy departments.

**Keywords: psychology, psycho-pedagogical processes, operations**

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Novruz Bəkirov**